*Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.*

# Yeni YOL

*30 APREL 2022-Cİ İL*
*№ 008 (155)*

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ *HAQQIN SÖZÜ – SÖZÜN HAQQI*

## GÜRCÜSTAN-RUSİYA DANIŞIQLARI TƏXİRƏ SALINIB



Gürcüstanla Rusiya arasında Cenevrə formatındakı danışıqların 56-cı raundu qeyri-müəyyən vaxtadək təxirə salınıb.

Yerli mətbuatın Rusiyadakı mənbələrə istinadən yazdığına əsasən, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin MDB ölkələri üzrə 4-cü departamentinin direktoru Denis Qonçar məlumat yayıb. Onun sözlərinə görə, danışıqlar BMT, ATƏT və Avropa İttifaqının təşəbbüsü ilə təxirə salınıb.

D.Qonçar qeyd edib ki, formatın işinin dayandırılması Cənubi Qafqazda sabitlik və təhlükəsizliyin möhkəmləndirilməsinə kömək etmir.

Qeyd edək ki, Gürcüstan ilə Rusiya arasında beynəlxalq Cenevrə danışıqları BMT, ATƏT və Aİ-nin vasitəçiliyi ilə 2008-ci ilin oktyabr ayından başlayıb. Bu danışıqlar Gürcüstan və Rusiya arasında gücün tətbiq edilməməsi üzrə öhdəliklər, beynəlxalq təhlükəsizlik mexanizmlərinin yaradılması və məcburi köçkünlərin evlərinə dönməsi ilə bağlı məsələlərin müzakirə olunduğu yeganə formatdır.

## GÜRCÜSTAN AVROPA İTTİFAQINA ÜZVLÜKLƏ BAĞLI SORĞU VƏRƏQƏSİNİN İLK HİSSƏSİNİ TAMAMLAYIB




Xarici işlər naziri İlia Darçiaşvilinin sözlərinə əsasən, Gürcüstan Avropa İttifaqına (Aİ) üzvlüklə bağlı sorğu vərəqəsinin birinci hissəsini artıq tamamlayıb.

O bildirib ki, siyasi və iqtisadi məsələlərin yer aldığı hissə mayın 2-də Avropa Komissiyasına təqdim olunacaq.

Anketin ikinci hissəsinə gəlincə, XİN başçısı qeyd edib ki, həmin hissə sektoral və texniki məsələlərdən ibarətdir. Onun sözlərinə görə, sonuncu hissənin doldurulması üzərində işlər davam etdirilir.

“Biz sonuncu hissəni ən qısa zamanda doldurub avropalı tərəfdaşlarımızla bölüşmək üçün əlimizdən gələni edəcəyik”, - deyə nazir bildirib.

İ.Darçiaşvili vurğulayıb ki, sorğu vərəqəsinin Aİ-yə təqdim olunması üçün son tarix kimi mayın 13-ü müəyyən edilib.

Qeyd edək ki, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili bu il martın 3-də Aİ-yə üzvlüklə bağlı müraciət imzalayıb. Gürcüstan ittifaqa üzvlüklə bağlı sorğu vərəqəsini aprelin 11-də təhvil alıb.

## İLİA DARÇİAŞVİLİ: GÜRCÜSTAN VƏ AZƏRBAYCANIN DOSTLUĞUNUN MÖHKƏMLƏNMƏSİ ÜÇÜN BÖYÜK POTENSİAL VAR



“Bir daha əmin oldum ki, Gürcüstan və Azərbaycan arasında dərin möhkəm köklərə malik dostluğun inkişafı və möhkəmlənməsi üçün daha da böyük potensial var”. Bunu Gürcüstanın xarici işlər naziri İlia Darçiaşvili feysbuk səhifəsində yazıb.

“Gürcüstan və Azərbaycan üçün əsas hərəkətverici qüvvə ölkələrimiz, regionun inkişafı və xalqlarımızın rifahıdır. Hər iki ölkə bu istiqamətdə tarixən çox işlər görüb. Gürcü və azərbaycanlı diplomatlara bu münasibətlərin dərinləşməsinə verdikləri töhfəyə görə təşəkkür edirəm”, - nazir qeyd edib.

Azərbaycana rəsmi səfərini başa vurduğunu bildirən XİN başçısı səmimi qonaqpərvərliyə görə azərbaycanlı həmkarlarına, səfərin təşkilinə görə Gürcüstanın Azərbaycandakı və Azərbaycanın Gürcüstandakı səfirliklərinə minnətdarlığını ifadə edib.

Səh. 2 DÜNYANI DƏYİŞƏNLƏR - Azər Musaoğlu yazır
Səh. 3 ƏZİZ ŞUŞA, BİZ QAYITMIŞIQ - Hacı Bəkiroğlu yazır
Səh. 4 BİRİNCİ SİNFƏ QEYDİYYAT VƏ MƏKTƏBLƏRƏ QƏBUL ÜÇÜN VACİB SƏNƏDLƏRİN TƏQDİM EDİLMƏ VAXTI DƏYİŞDİRİLİB
Səh. 4 ABİTURİYENTLƏRİN ƏN ÇOX SEÇDİYİ FƏNLƏR MƏLUM OLUB
Səh. 4 ŞAGİRD STATUSU DAYANDIRILANLARIN SAYINA GÖRƏ KVEMO KARTLİ İKİNCİ YERDƏDİR
Səh. 5 RAMAZAN BİZƏ NƏ DEYİR? - Esmira Ələkbərli yazır
Səh. 6 TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ - Elizbar Cavelidze
Səh. 7 NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR - Afiq Muxtaroğlu yazır

## GÜRCÜSTANDA KORONAVİRUSDAN ÖLƏNLƏRİN SAYI 16 807 NƏFƏRƏ ÇATIB



Aprelin 30-na olan son məlumata əsasən, Gürcüstanda koronavirusdan ölənlərin sayı 16 807 nəfərə çatıb. Bu haqda hökumətin xüsusi yaratdığı www.stopcov.ge saytında qeyd edilib.

Məlumatda ölkədə koronavirusa yoluxanların ümumi sayı 1 655 098 nəfər, sağalanların ümumi sayı isə 1 637 037 nəfər olaraq göstərilib.

Aprelin 30-na kimi ölkədə ümumi olaraq 2 882 075 nəfər COVID-19 əleyhinə peyvənd olunub. Stasionar nəzarət altında saxlanılanların sayı isə 293 nəfər olaraq göstərilib.



# DÜNYANI DƏYİŞƏNLƏR VƏ YA DÜNYASINI DƏYİŞƏNLƏR

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

"Əgər dünyanı dəyişmək istəyirsənsə öz çarpayını səliqəyə salmaqdan başla... Bununla siz kiçik işlərin də əhəmiyyətinin olduğunu təsdiqləyirsiniz..." Bu cümlələr amerikalı admiral Vilyam Makreyvenin Texas Universitetindəki çıxışındandır.

Bizə gəldikdə isə, ümumiyyətlə, dünyanı dəyişmək istəyirikmi və səhərlər yatağımızdan durduqdan sonra çarpayımızı səliqəyə salırıqmı, yerimizi yığırıqmı?..

Məncə, biz dünyanı dəyişməkdən çox ətrafımızdakı insanları dəyişməyə çalışırıq, ən yaxşı halda istəyirik hamı bizə oxşasın, bizim kimi geyinsin, bizim yediyimizdən yesin, evləri bizimki kimi olsun, bizim sürdüyümüz maşından sürsün, bizim kimi fikirləşsin, bir sözlə, bizim kimi yaşasın və ölsün. Pis halda isə istəyirik hamı bizə oxşasa da bizdən pis geyinsin, bizdən az yesin, evləri bizimkindən alçaq olsun, "Opel" sürsün, biz fikirləşdiyimizi təsdiq etsin, bir sözlə, bizdən pis yaşasın və ölsün. Fərqliliyə, müxtəlifliyə, rəngarəngliyə qarşı allergiyamız var sanki.

Bizdə dünyanı dəyişmək ifadəsi dünyadan köçmək, ölmək mənasında işlədilir. Yəqin ki, dünyanı dəyişmək ifadəsi yaşadığımız dünyanı gözəlləşdirmək, yaxşılaşdırmaq mənasında işlənməyəcəyi sürədə biz dünyanı yaxşılığa doğru dəyişmək əvəzinə elə beləcə də ömür sürüb sadəcə dünyamızı dəyişəcəyik, öləcəyik yəni.

Biz heç öz mikrodünyamızı – özümüzü dəyişməyə də cəhd etmirik, sanki elə beləcə də olmalıdır, sanki dünya dediyimiz yaşadığımız həyət-bacadan ibarətdir və dəyişsəm uzağı hasarı söküb bir az da hündürdən tikməliyəm və ya həyətə bər-bəzəkli daş düzdürməliyəm ki, qonşudan dala qalmayım.

Çarpayını səliqəyə salmaq, yatacağı yığmaq nədir? Başına atmı təpib?! Heç kişi də dağıtdığı yeri yığarmı? Bəs arvad nədən ötrüdür? Bəlkə şalvarımı da özüm ütüləyim, çayımı da özüm süzüm, hələ bir əlimə süpürgə də alım, uşaqların əyin-başını da mən geyindirim, kirli paltarları paltaryuyan maşına da mən doldurum, xörək də bişirim? Bəlkə səhərdən axşama kimi işləyib pul da qazanım hələ? Özgə nə istəyirsən?.. Arvad da əlini ağdan-qaraya vurmasın, bütün günü televizorun qarşısında siqaret tüstüləsin, tum çırtlasın, evi alt-üst etsin, çayxanada dominoda uduzduğunun əvəzini evdə kişidən, uşaqlardan çıxsın, çığırsın, söyüş söysün və daha nələr, nələr... Yox, qardaş, dünyanı dəyişmək mənlik deyil, qoy bunu o amerikalılar eləsinlər.

Dünyanı dəyişməyə iddialı olmasaq da ən azından hər səhər çarpayımızı səliqəyə salmağa gücümüz də, səbrimiz də, iradəmiz də çatar. Yəni şəhərimizdəki istirahət parkında yeni əkilmiş dekorativ ağacları inəklərin yediyini görüb kənardan tamaşa etməməliyik; uşaqlar üçün nəzərdə tutulmuş yelləncəkləri ağnayıb sındırmamalıyıq; zibili ətrafa yox, zibil üçün qoyulmuş qutulara atmalıyıq; maşınımızı piyada keçidlərinin üzərində saxlamamalıyıq; mağazada, aptekdə, xəstəxanada və digər yerlərdə növbədə sıramızı gözləməliyik; küçədə bərkdən anqıraraq söyüş söyməməliyik; başqalarını narahat etməməliyik; insanların istirahəti üçün düzəldilmiş oturacaqları, işıq lampalarını sındırmamalıyıq; səkiləri, yolları bağlamamalıyıq; başqasının suyunu, qazını, işığını kəsməməliyik və daha nələr, nələr... bütün bunlar elə çarpayını səliqəyə salmaqdır. Bu kimi yaramazlıqları etməmək də elə dünyanı yaxşılığa doğru dəyişməkdir. Bunun üçün nə amerikalı olmaq, nə də Amerikada yaşamaq lazım gəlmir, bir az qanacaq olsa yetərlidir. Əks halda nə dünyanı dəyişə biləcəyik, nə yaşadığımız şəhəri, kəndi, məhləni, insanları, hakimiyyətləri, sistemləri, rejimləri, nə də özümüzü. Dəyişsək dəyişsək sadəcə dünyamızı dəyişəcəyik, gələcək nəsillər də ya rəhmət oxuyacaq, ya gorumuzu söyəcək.

## MARNEULİDƏ İKİ KƏNDİN ADI DƏYİŞDİRİLİR




Marneuli rayonunun iki kəndi – Kirovka və Şaumyan kəndlərinin adları dəyişdirilir.

Marneuli bələdiyyə məclisinin toplantısında Kirovka kəndinin Mtsvane qora (Yaşıl təpə) və yaxud Meqobroba (Dostluq), Şaumyan kəndinin isə Yuxarı Şulaver adlandırılması təklif olunub.

Məsələyə ilk olaraq bələdiyyə məclisinin Coğrafi obyektlərin adlandırılması Komissiyasında baxılacaq və yekun qərarı yerli özünüidarəetmə orqanı qəbul edəcək.

2011-ci ildə Gürcüstanda qəbul edilən "Azadlıq xartiyası"na əsasən coğrafi adlarda sovet və kommunizm dövrünün xadimlərinin adlarının istifadəsi qadağandır.

Şaumyan kəndinə Bakı komissarlarından biri olan Stepan Şaumyanın adı 1925-ci ildə verilib. Kəndin hazırkı əhalisinin böyük əksəriyyətini ermənilər təşkil edir. Kirovka kəndinin köhnə adı isə Mamey olub. Bolşevik rəhbərlərindən biri olan Sergey Kirovun şərəfinə adlandırılmış kənddə əsasən azərbaycanlılar yaşayır.

**Qeyd edək ki, yerli əhali Kirovka kəndinə tarixi Mamey adının verilməsini tələb edir.**

## AZTƏMİNATLI AİLƏLƏRİN UŞAQLARI 200 LARİ ALACAQLAR

İyunun 1-dən etibarən aztəminatlı ailələrin uşaqları 200 lari dəyərində yardım alacaqlar. Bu barədə səhiyyə naziri Zurab Azaraşvili açıqlama verib.

*"2020-ci ildə aztəminatlı ailələrin uşaqları 50 lari alırdı. Sonra bu yardım 100 lari oldu. Bundan sonra isə uşaqlar 200 lari yardım alacaqlar. Bu pul yaşam şəraiti və qidanı təmin etmək üçün onların ehtiyac duyduğu minimum dəyərdir",* - deyə Z.Azaraşvili bildirib.



## MƏKTƏB VƏ UŞAQ BAĞÇALARININ BİNALARINDA DÖVLƏT BAYRAĞININ QALDIRILMASI MƏCBURİ OLUB

"Gürcüstanın dövlət rəmzlərindən istifadə qaydası haqqında" qanunda dəyişiklik edilib. Qanuna edilən dəyişikliyi yekun oxunuşda 87 deputat dəstəkləyib.

Dəyişikliyə əsasən, ümumtəhsil müəssisələrində (məktəb binalarında), həmçinin Gürcüstan qanunvericiliyinə uyğun olaraq təsis edilmiş məktəbəqədər təlim-tərbiyə və təhsil xidmətini təmin edən hüquqi şəxslərin binalarında Gürcüstanın dövlət bayrağının həmişəlik qaldırılması məcburi olub.

Bununla yanaşı qeyd olunan müəssisələrdə Gürcüstanın dövlət himninin mətninin görünən yerə yerləşdirilməsi də məcburi olub.

## ERKƏN EVLİLİKLƏ BAĞLI ARAŞDIRMA TƏQDİM EDİLİB

Kvemo Kartli bölgəsində erkən evlilik əsasən dini və ənənə meyarları ilə əlaqələndirilir. Bu, bölgədə erkən evliliklə bağlı zərərli təcrübələr mövzusunda aparılmış araşdırmanın nəticələrindən məlum olub.

Gürcüstanın Ombudsman Aparatı və BMT-nin Əhali Fondunun (UNFPA) Nümayəndəliyinin dəstəyi ilə Kvemo Kartli bölgəsinin 7 bələdiyyəsində həyata keçirilmiş araşdırmada bu məsələdə hüquq-mühafizə orqanları və məktəbin rolunun vacibliyi vurğulanıb.

Araşdırmaçı - "Salam" gənclər platformasının üzvü Kamran Məmmədli bildirib ki, polis əksər hallarda erkən evlilik hallarına göz yumur, bu məsələdə müdafiə mexanizmi kimi isə Ombudsman Aparatı və yerli fəallar çıxış edirlər.

Tədbirdə iştirak edən ombudsman Nino Lomcaria Gürcüstanda etnik azlıqlar arasında cinsi və reproduktiv sağlamlıqla bağlı vəziyyətə toxunub. O, bu sahədə durumun çox mürəkkəb olduğunu bildirib: "Onların əksəriyyəti, xüsusən də qadınlar ailə qayğıları və digər problemlərə daha çox önəm verir".

UNFPA-nın Gürcüstan Nümayəndəliyinin rəhbəri Lela Bakradze öz növbəsində deyib ki, etnik azlıqların reproduktiv sağlamlığı ilə bağlı vəziyyət şəhər və kənd yerlərinə görə çox fərqlənir: "Bu mövzuda aparılmış araşdırma məlumatlılıq, sosial və mədəni problemlərin səbəbləri barədə öyrənmək baxımından çox əhəmiyyətlidir. Dövlət proqramlarının planlaşdırılmasına bu cür araşdırmalar kömək edə bilər".

Etnik azlıqlar arasında reproduktiv sağlamlıqla bağlı vəziyyətin qiymətləndirilməsinə dair araşdırma müəllifi Esma İmerlişvili bu sahədə durumun ürəkaçan olmadığını bildirib. Kvemo Kartli və Samtsxe Cavaxeti bölgələrində ötən ilin sentyabr-oktyabr aylarında aparılmış araşdırmaya əsasən, əsas səbəblər kimi tabu və stiqmalar, dil baryeri, cinsi təhsilin olmaması, tibbi personalın qeyri-həssaslığı və tibbi xidmətlərin maddi baryerə görə əlçatan olmaması müəyyən edilib.

*Mənbə: report.az*

## GYMD VƏ AZİZ MAHMUD HÜDAYİ VƏQFİNİN DƏSTƏYİ İLƏ İFTAR SÜFRƏLƏRİ AÇILIB VƏ RAMAZAN SOVQATI PAYLANIB



Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının və Bütün Gürcüstan Müsəlmanları İdarəsinin təşkilatçılığı və Türkiyədə fəaliyyət göstərən Aziz Mahmud Hüdayi Vəqfinin dəstəyi ilə Ramazan ayında paytaxt Tbilisidə, Marneuli rayonunun İkinci Kosalı, Sadaxlı, Hacısə, Kürtlər, Qullar, Lecbəddin kəndlərində, Qardabani şəhərində və Qardabaninin Vaxtanqisi, İstisu (Vaqzal) kəndlərində, Bolnisi rayonunun Qoşa Kilsə, Gülaver, Faxralı və Saraclı kəndlərində, Dmanisi rayonunun Yırğançay, Hamamlı kəndlərində, Kaxeti bölgəsinin Qaraçöp və Pankisi dərəsində iftar süfrələri təşkil edilib. Həmçinin Marneuli Rayonunun Vin Sovxoz, Xixani, Sadaxlı, Birinci Kosalı kəndlərində, Qardabani şəhərində və Vaxtanqisi kəndində, Rustavidə, Dmanisi rayonunun Məmişli, Kaxeti bölgəsinin Çantliskuri və Qaraçöp kəndində, Zalqa şəhərində və Ağbulaq rayonunun Cincğaro kəndində qadınlar üçün iftar süfrələri açılıb.

Həmçinin minə yaxın ailəyə ərzaqlardan ibarət Ramazan sovqatı verilib.

## GÜRCÜSTAN MÜSƏLMANLAR İDARƏSİ ÜÇÜN TBİLİSİDƏ QƏRARGAH TİKİLƏCƏK



Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin qərarı ilə Tbilisidə ölkənin müsəlman icması üçün torpaq sahəsi ayrılıb.

O, bu barədə müsəlman icmasının şərəfinə təşkil olunan iftar məclisində çıxışı zamanı bildirib.

Onun sözlərinə görə, həmin sahədə Gürcüstan Müsəlmanları İdarəsi üçün mərkəzi ofis inşa olunacaq.

Baş nazir indiyədək ümumilikdə 200-ə yaxın məscidin müsəlman icmasına təhvil verildiyini, yaxın vaxtlarda daha 28 məscidin təhvil verilməsinin nəzərdə tutulduğunu qeyd edib.

## DAVİD NARMANİA: AZƏRBAYCAN VƏ TÜRKİYƏDƏN ALTERNATİV İDXAL MƏNBƏLƏRİMİZ VAR

“Rusiyadan elektrik enerjisinin idxalına hər hansı bir sanksiya tətbiq edilərsə Gürcüstan üçün təhlükə olmayacaq. Belə ki, Azərbaycan və Türkiyədən alternativ idxal mənbələrimiz var”.

Bunu Gürcüstanın Energetika və Su Təminatı üzrə Milli Tənzimləmə Komissiyasının sədri David Narmania deyib.

Onun sözlərinə görə, mart ayında Gürcüstan böyük həcmdə elektrik enerjisi idxal edib.

“Lakin biz artıq elektrik enerjisinin tədarükünə ehtiyacın olmayacağı fazaya daxil oluruq. SES-lər yerli tələbatı ödəmək üçün kifayət qədər elektrik enerjisi istehsal edəcək. Bununla yanaşı yaxın gələcəkdə bizdə ixraca yönələcək elektrik enerjisi də olacaq”, - deyə D.Narmania bildirib.

Bu ilin I rübündə Gürcüstan Azərbaycandan 119,2 milyon kilovatt/saat həcmində elektrik enerjisi idxal edib. İllik müqayisədə həcm 74,2 % və yaxud 3,8 dəfə azalıb.

Hesabat dövründə Gürcüstan ümumilikdə 1 094,4 milyon kilovatt/saat həcmində elektrik enerjisi idxal edib. Ölkənin əsas elektrik enerjisi tədarükçüsü Rusiya (836,8 milyon kilovatt/saat) olub.

## ABŞ “GÜRCÜSTANA DƏSTƏK AKTI”NI TƏSDİQLƏYİB

ABŞ Nümayəndələr Palatası “Gürcüstana dəstək aktı”nı təsdiqləyib. Bu barədə ABŞ Dövlət Departamentindən bildirilib.

Sənəddə iki ölkə arasında qanunvericilik səviyyəsində möhkəm strateji tərəfdaşlığın qurulması nəzərdə tutulur.

Aktda ABŞ-ın Gürcüstanın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyünə, Avropa və Avroatlantik inteqrasiyasına qətiyyətli dəstəyi, həmçinin ölkə vətəndaşlarının öz gələcəklərini, xarici və təhlükəsizlik siyasətini müəyyən etmək hüququ qeyd olunub.

Qanun layihəsi Rusiyanın işğal etdiyi Abxaziya və Tsxinval regionlarında insan haqlarının pozulmasını qınayır, münaqişənin sülh yolu ilə həllini dəstəkləyir və Rusiyanı 2008-ci il 12 avqust tarixli atəşkəs haqqında razılaşmaya tam əməl etməyə çağırır.

Sənəddə müdafiə və təhlükəsizlik sahələrində ABŞ-Gürcüstan əməkdaşlığına xüsusi diqqət ayrılıb. Aktda ABŞ administrasiyasına Gürcüstanın Rusiya dezinformasiyası və təbliğatı ilə mübarizədə imkanlarını gücləndirmək üçün təsirli addımlar atmağa çağırılıb.

Prosedur planda növbəti addım kimi Nümayəndələr Palatasının təsdiqlədiyi sənəd Senata göndəriləcək. Qanun layihəsinin Senatın müvafiq komitələrində təsdiqlənəcəyi və prezidentin sənədi imzalayacağı halda “Gürcüstana dəstək aktı” qüvvəyə minəcək.

Gürcüstanın Baş naziri İrakli Qaribaşvili bildirib ki, aktın qəbul edilməsi ABŞ və Gürcüstan arasında strateji tərəfdaşlığın güclənməsini təsdiqləyir. O, Gürcüstanın suverenliyi, ərazi bütövlüyü, demokratiya və NATO-ya inteqrasiyasını dəstəklədiyinə görə Nümayəndələr Palatasına təşəkkür edib.

## ƏZİZ ŞUŞA, BİZ QAYITMIŞIQ



Hacı BƏKİROĞLU
hacihaciyev@hotmail.com

Aprel ayı mənim üçün həm mənəvi, həm də dünyəvi mənada gözəl bir ay oldu. Mənəvi anlamda olanı dinimizin əmri olan Ramazan orucunu sağlam bir şəkildə tuta bilməm, dünyəvi mənada isə hər bir azərbaycanlının arzusu, 30 ilə yaxındır ki, işğal altında olan torpaqlarımızı görməyim oldu.

Aprel ayının 21-23 tarixlərində keçirilən Dünya Azərbaycanlılarının V Qurultayında Gürcüstan heyətində biz də yer aldıq. O tarixi məkanları, dilbər guşələri görəcəyim üçün hər bir iştirakçı kimi məni də həyəcan bürümüşdü.

Qırmızı Körpüdən Füzuli rayonuna kimi adi yolçuluq olaraq yolumuza davam etdik. Çünki gördüklərimiz həmişə gördüklərimiz mənzərə idi. Elə ki Füzuli şəhərindən Zəfər Yoluna düzəldik sevinc, həyəcan və görülən vahiməli mənzərə üçün nifrət hissləri bir arada yaşanmağa başladı. İşğalda olan ərazilərdə bir salamat bina görmək mümkün olmadı. Nə özləri yaşamayıblar, nə də yaşanılacaq ev buraxmayıblar. Yol kənarındakı dağıdılmış, daşları belə oğurlanmış qəbiristanlığı görmək isə insanın içini parçalayır. Ancaq bir tərəfdən də müzəffər ordunun irəlilədiyi yerlərlə salınmış olan Zəfər Yolu ilə yol getmək insana başqa sevinc hissi yaşadır. Göz yaşların səndən ixtiyarsız olaraq tökülməyə başlayır. İnsana acı verən başqa bir mənzərə isə Şuşaya girmək üçün yeganə yol olan Xankəndi yolunun hasarlanması və rus əsgərlərinin növbədə dayanmasıdır.

Bu mənzərəli yolla gedərkən bir də yenilməz Azərbaycan ordusunun Vətən uğrunda hər əngəli aşa biləcəyinin canlı nümunəsi olan, aşılmazı aşan ordunun dırmandığı zirvəni görmək, tamaşa eləmək insanın içinə bir qürur duyğusu gətirir ki, qəlb kövrəlir, göz yaşarır.

Şuşaya daxil olursan Qala qapısı səni əzəmət və qürurla salamlayır, Aşağı Gövhər ağa məscidi qoşa minarələri ilə sizi gözləyirdim deyərcəsinə ziyarətçilərinə xoş gəldin deyir, Bülbülün zümzüməsi qulaqlarında duyulur, yenidən bərpa olunmuş Vaqif məqbərəsi əzəmətlə sənə gəl-gəl deyir. Cıdır Düzündə addımlayarkən içində olan duyğuları isə sözlə tərif etmək mümkün deyil. Doğrudan da insan yüksək səslə, həm də çox yüksək səslə ƏZİZ ŞUŞA, BİZ QAYITMIŞIQ deyə bağırmaq istəyir.

İndi isə gələk Şuşa səfərinin toplanış məqsədinə. Bu yığıncaqda 65 ölkədən 400-ə qədər soydaşımız iştirak edirdi. Bu da o deməkdir ki, 65 müxtəlif ölkədə Azərbaycançılığı təbliğ edən 400 vətəndaşın görüşməsi idi. Bu görüşün isə Şuşada baş verməsi tam yerində bir qərar idi ki, gələn qonaqların da Şuşada və o cümlədən işğaldan azad olunmuş torpaqların düşmən tərəfindən necə dağıdıldığını özləri görsünlər və bu reallığı təfərrüatı ilə getdikləri yerlərdə olduğu kimi anlada bilsinlər.

Qurultayın açılışında cənab Prezident İlham Əliyevin təfərrüatlı və konkret çıxışı Azərbaycanın gələcəyə doğru atacağı ciddi addımlardan xəbər verirdi. Prezidentin “biz təkcə ermənilərlə vuruşmurduq” açıqlaması isə xalqına düşmənimizin çoxluğundan və bir yumruq ətrafında toplaşmalı olmağımızdan xəbər verirdi. Necə ki 44 günlük müharibədə bunu bacardıq, bundan sonra da bu birliyi qorumağın gərəkliliyini deyirdi.

Daha sonrakı panel çıxışlarda isə müxtəlif ölkələrdəki azərbaycanlıların fəaliyyətləri və gələcəkdə daha effektiv olaraq hansı formatlarda daha səmərəli fəaliyyət göstərmələri lazım olması müzakirə olundu.

Həmçinin müxtəlif ölkələrdə uğurlu fəaliyyətləri, Azərbaycanın və azərbaycanlıların düzgün tanıdılması yönündə bir çox şəxs tərəqqi medalı ilə təltif olundu. Gürcüstandan da bu medallara layiq görülən dörd vətəndaşımızdan biri də Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının sədri Musa Hacıyev oldu.

İnşallah Dünya Azərbaycanlılarının VI Qurultayını abadlaşmış və dirçəlmiş Qarabağımızda qeyd edərik.

Bu mövzu çərçivəsində deyiləcək və yazılacaq sözlər çoxdur. Biz isə bu qədəri ilə kifayətlənib sağlıqla qalın deyək.

## BİRİNCİ SİNFƏ QEYDİYYAT VƏ MƏKTƏBLƏRƏ QƏBUL ÜÇÜN VACİB SƏNƏDLƏRİN TƏQDİM EDİLMƏ VAXTI DƏYİŞDİRİLİB



Gürcüstanın ümumtəhsil müəssisələrində şagirdlərin birinci sinfə qeydiyyatı və məktəbə qəbul üçün vacib sənədlərin təqdim edilmə vaxtı dəyişdirilib. Bu barədə Gürcüstanın Təhsil və Elm Nazirliyi məlumat yayıb.

Qeydiyyatın birinci mərhələsi aparılan zaman Təhsil və Elm Nazirliyi Parlamentin Təhsil və Elm Komitəsinin birgə qərarı ilə "Ümumi təhsil haqqında qanunda" dəyişikliklər edib. Dəyişikliklər ümumtəhsil müəssisələrində başlanğıc pillədə təhsilə başlamaq yaşı ilə əlaqədardır. Qeyd olunan dəyişiklikləri nəzərə almaqla 2022-2023-cü tədris ilində birinci sinfə əlavə olaraq 16 sentyabrdan 1 oktyabra qədər 6 yaşı tamam olan uşaqların qəbulu həyata keçiriləlidir.

Buradan irəli gələrək Gürcüstanın təhsil və elm nazirinin 2022-ci ilin 4 mart N221866 nömrəli sərəncamına əsasən, birinci sinif şagirdlərinin qeydiyyatı və məktəbə qəbul olmaq üçün vacib sənədlərin təqdim edilmə vaxtları aşağıdakı kimi müəyyən edilib:

**I mərhələ** 2022-ci ilin 20 aprel tarixindən 28 aprel tarixinə qədər həyata keçirilir. Bu dövr ərzində məktəblərdə qeydiyyatın birinci mərhələsində müəyyən edilmiş müddətdə qeydiyyatdan keçə bilməyən xüsusi təhsilə ehtiyacı olan uşaqların əlavə qeydiyyatına şərait yaradılacaq.

I mərhələdə qeydiyyatdan keçməli olan uşaqların valideynləri istədikləri ictimai məktəbə ərizə ilə müraciət etməlidirlər. Məktəb rəhbərliyi isə öz növbəsində uşağı Təhsilin İdarəsi üzrə Məlumat Sistemində (EMIS) qeydiyyatdan keçirir. Şagirdin xüsusi təhsilə ehtiyacı olduğunu təsdiqləmək məqsədi ilə valideyn məktəbdə nazirin sərəncamı ilə təsdiqlənmiş müraciət formasını doldurmalıdır və nəticədə multidisiplin işləri üzrə komanda tərəfindən uşaq qiymətləndirilir, onun xüsusi təhsilə ehtiyacı olub-olmadığı müəyyənləşdirilir. Şagirdin xüsusi təhsilə ehtiyacı olduğu təsdiqləndiyi halda məktəb müvafiq sənədlər əsasında şagirdin qəbul olunmasını təmin edir. Birinci mərhələdə qeydiyyatdan keçmiş uşaqların valideynləri məktəblərə 2022-ci ilin 29 aprelindən 2022-ci ilin 6 may tarixinə qədər sənədləri təqdim edə biləcəklər.

Xüsusi təhsilə ehtiyacı olmayan uşaqların valideynləri övladlarını növbəti mərhələdə qeydiyyat etdirməli olacaqlar.

Qeydiyyatın **II mərhələ**si mayın 10-dan mayın 20-nə kimi mümkün olacaq və məktəbdə bu uşaqlar qeydiyyatdan keçə biləcəklər:

- *Eyni məktəbdə təhsil alan bacı-qardaşlar;*
- *Valideyni məktəbin əməkdaşı olan uşaqlar;*
- *Ailədən eyni zamanda birinci sinfə qeydiyyat olunan iki və ya daha çox olan uşaqlar.*

Qeydiyyat ictimai məktəblərdə valideynin/qanuni nümayəndənin qəbul üçün təqdim etdiyi sənədlər əsasında həyata keçirilir. Qeydiyyatı ictimai məktəb təmin edir. Qeyd etmək lazımdır ki, ikinci mərhələdə qeydiyyatdan keçirilmiş uşaqların valideynləri müvafiq sənədləri qeydiyyat üçün müəyyən edilmiş vaxtda məktəbə təqdim etməlidirlər.

**III mərhələ** – ümumi qeydiyyat – 2022-ci ilin 24 may tarixindən başlayacaq və 15 iyun tarixinə qədər davam edəcək.

Qeydiyyat təhsilin idarəsi üzrə məlumat sisteminin rəsmi veb-səhifəsində – **registration.emis.ge**-də həyata keçiriləcək. Qeydiyyatı valideyn/qanuni nümayəndə edir. Elektron qeydiyyat olunan şagirdin qəbul olması üçün vacib sənədlərin təqdim edilməsi 2022-ci ilin 16 iyun tarixindən 30 iyun tarixinə qədər həyata keçirilir. Müəyyən edilmiş vaxtda sənədlərin təqdim olunmaması halında qeydiyyat avtomatik ləğv olunacaq.

**IV mərhələ** 2022-ci ilin 4 iyul tarixindən 12 iyul tarixinə qədər məktəblərdə həyata keçiriləcək. Bu mərhələdə azad olunan vakant, yaxud qalan boş yerlərə I, II və III mərhələlərdə qeydiyyatdan keçə bilməyən və ya qeydiyyatı dəyişmək istəyənlər yerləşdiriləcək.

Şagirdin dördüncü mərhələdə qeydiyyatını ictimai məktəb valideynin/qanuni nümayəndənin təqdim etdiyi vacib sənədlər əsasında təmin edir.

***Birinci sinfə qəbul üçün lazım olan vacib sənədlər:***

- Şagirdin qanuni nümayəndəsinin ərizəsi. Ərizədə qanuni nümayəndənin yaşayış yeri və telefon nömrəsi haqqında məlumat qeyd olunmalıdır.
- Şagirdin doğum şəhadətnaməsi, yaxud şəxsiyyəti təsdiq edən sənədin nüsxəsi və Gürcüstanda müvəqqəti yaşayışı təsdiq edən sənədin nüsxəsi (belə hal olarsa).

*Gürcüstanın Təhsil və Elm Nazirliyi uşaqları vaxtında və maneəsiz birinci sinfə qeydiyyat etmələri üçün valideynləri qeydiyyat vaxtları və şərtləri ilə yaxından tanış olmağa çağırıb.*

## ABİTURİYENTLƏRİN ƏN ÇOX SEÇDİYİ FƏNLƏR MƏLUM OLUB

2022-ci il 14 aprel saat 18:00-a kimi abituriyentlərin öz qeydiyyat səhifələrinə hər hansı imtahanı əlavə etmək və ya silmək imkanı var idi. Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin məlumatına görə, bu müddət başa çatdıqdan sonra abituriyentlərin seçim etdiyi fənlər aşağıdakı kimidir:

**Tarixi seçən abituriyentlərin sayı 21 800-ə qədərdir;**
**Riyaziyyat – 13 800-dən çox abituriyent;**
**Biologiya – 3 400-dən çox abituriyent;**
**Coğrafiya – 1 300-ə qədər abituriyent;**
**Vətəndaş təhsili – 600-ə qədər abituriyent;**
**Ədəbiyyat – 800-ə qədər abituriyent;**
**Kimya – 2 600-ə qədər abituriyent;**
**Fizika – 350-yə qədər abituriyent;**
**Təsviri və tətbiqi incəsənət – 200-ə qədər abituriyent.**

İmtahan verənlərin daha bir neçə ay ərzində proqram seçmək və silmək imkanı var. Bu, apelyasiya prosesinin nəticələrinin yayımlanmasından növbəti gün dayandırılacaq.

Qeyd edək ki, 2022-ci ildə vahid milli imtahanlarda iştirak etmək üçün **41 000**-dən çox abituriyent qeydiyyatdan keçib.

## ŞAGİRD STATUSU DAYANDIRILANLARIN SAYINA GÖRƏ KVEMO KARTLİ İKİNCİ YERDƏDİR



Xalq Müdafiəçisi 2021-ci ilin parlament hesabatında şagirdlərin təhsili tərk etməsinin yüksək göstəricilərindən söhbət açaraq qeyd edib ki, məktəb şagirdlərinin təhsili niyə tərk etməsini dəqiq müəyyən edəcək norma qaydaya salınmalıdır.

2021-2022-ci tədris ilində hesabat dövründə təhsili tərk etmə və şagird statusunun dayandırılması göstəricisi yenə də aktualdır. Bu göstərici Tbilisidə (2 947 / 35 %), ***Kvemo Kartlidə (1 970 / 23,4 %)*** və Kaxetidə (714 / 8.5 %) yenə yüksəkdir. Həmçinin gender baxımından müqayisədə oğlanların təhsili tərk etməsi daha çox qeydə alınır.

Təhsil müəssisələri tərəfindən şagird statusunun dayandırılma əsasları statistikasının yenidən dəqiqləşdirilməsinə ehtiyac var. Şagird statusunun dayandırılması hallarının qeydə alınması zamanı "valideynin ərizəsi" və ya "qaiblərin sayı" kimi qaranlıq məzmunlu əsaslar uşağın təhsil prosesindən uzaqlaşdırılmasının real səbəbi barədə məlumat vermir.

## MƏKTƏBLƏRDƏ İKİNCİ XARİCİ DİLİN TƏDRİSİNƏ ÜÇÜNCÜ SİNİFDƏN İCAZƏ VERİLİR

Orta məktəblərdə xarici dillərin tədris edilməsinin səbəbi şagirdin dövlət dili ilə yanaşı ən azı iki dildə ünsiyyət qurmaq bacarığının inkişaf etdirilməsidir.

Məktəb şagirdlərə seçim üçün minimum iki xarici dil təklif etməlidir. Buradan birinci xarici dilin tədrisinə I sinifdən başlanılır və XII-ci sinfə qədər davam etdirilir. İkinci xarici dilin tədrisi isə V sinifdən başlayır və orta pillənin sonuna qədər davam edir (V-XII).

Məktəblərdə xarici dilin tədrisindən söhbət gedəndə, qeyd etmək lazımdır ki, milli tədris planına əsasən, birinci sinifdən ingilis dilinin tədrisi məcburidir. Məktəbin şagirdə ikinci xarici dil kimi hər hansı dili təklif etmək hüququ var. Bu, məktəbin tədris planı ilə müəyyən edilməlidir.

Qeyd etdiyimiz kimi, ikinci xarici dil V sinifdən tədris olunur. Ancaq burada istisna hallar da var. İkinci dilin tədrisinə V sinif əvəzinə III sinifdən də icazə verilir. Hətta bəzi hallarda ikinci xarici dilin tədrisinə istənilən sinifdən başlamaq olar.

Milli tədris planına əsasən, ictimai məktəbin nazirliklə yazılı razılaşması nəticəsində ikinci xarici dilin tədrisinə III sinifdən başlamaq hüququ var.

Xarici dilin gücləndirilmiş tədrisi statusu olan və özəl məktəblər isə ikinci xarici dilin tədrisinə istənilən sinifdən başlaya bilərlər.

***Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb.***
***Gürcü dilindən tərcümə etdi: Aynurə ƏLİYEVA***

# RAMAZAN BİZƏ NƏ DEYİR?



İslam o qədər böyük məna kəsb edən bir sahə ki, ona din, cərəyan, yol deməyi çox cüzi bilirəm. İslam böyük bir fəlsəfə, hər cümləsi, ayini, qanunu, qaydası bir elmdir. 1400 illik bir zaman onun qaydalarını dəyişdirmədi, təkminləşdirmədi, amma hər cümləsinin hikməti hikmət olaraq qaldı.

Mən dinşünas olmasam da, özümçün araşdırmaçı olaraq islamın möcüzələrindən riqqətə gəlirəm. Hansı ki, yüzillər öncə elmin belə açmadığı qapılardan öncə ipucu verən qaydaları, xəbərdarlıqları ilə təəccüb yaradır. Bu haqda çox yazılıb, danışılıb. Mən də bu gün yaşadığımız Ramazan ayının möcüzəsini bir fizioloq kimi sizin üçün açmağa çalışacam. Əlbəttə, kamil olmasa da elmin dediyini sadə dillə sizə çatdıracam.

Ramazana iki yönümdən yanaşılır. Birincisi, nəfsin gücü sınağa çəkilir və bizə anlatmağa çalışılır ki, minlərlə ac insanlar var, onları ən azından anlaya bilək. İkincisi, Məhəmməd peyğənbər buyurub ki, oruc tut, sağlam ol! Oruc sağlam olmaq üçün tutulur.

Etiraf edək ki, əksəriyyət orucun və Ramazanın sadaladığım birinci səbəbini anlasalar da, ikincinin fərqində deyillər. Ən pisi, bəlkə də utanc tərəfi də odur ki, kimlərsə Allaha rüşvət kimi "niyətim yerinə yetsin" arzusuyla, bir qismi də arıqlamaq üçün oruc tuturlar (Onu da deyim ki, oruc zamanı orqanizmdə su balansı itir, nəticədə çəki düşür. Yəni müvəqqəti az çəki hüceyrələrdəki su çatışmazlığındandır).

İndi gəlin 30 gündə orqanizmdə nələrin baş verdiyini nəzərdən keçirək. Bir ömür orqanizm dayanmadan çalışır, hətta biz yuxuda olarkən belə çalışan orqanlar Ramazanda dincəlməyə vaxt istəyir. Yediyimiz qidaların vicdana sığmayan tərkibi orqanlara elə dağ çəkir ki, yazılması belə çətindir. Bax, həmin qidaların həzmi zamanı qaraciyər, öd, dalaq, böyrək bizi qorumaq üçün nələrə qatlanmır, damarların divarı çaydan ərpi kimi xolesterindən qurum bağlayır, mədə-bağırsaq anormal qidalarımızdan şlaq deyilən yığıntılardan "nəfəs" ala bilmir. Bax, bizim müqəddəs Ramazanımız 30 günün hər günü bir yeniliyi ilə Allahın bəndəsinə bir töhvəsidir.

**Səbəbi tapılmayan baş ağrıları.** Heç fərqində deyilik ki, çarə orucla ola bilər. Bayaq dediyim qidaların çətin həzmi zamanı (sanki avtomobilə kerosin tökürlər ki, işlə) bütün daxili orqanlar gücləndirilmiş rejimdə çalışırlar, qan dövranı da ciddi rejimdə işləyən orqanlara qan aparır, nəticədə beyinə qan lazım olan qədər çatmır və baş ağrıları xroniki ağrılar halında bizimlə yoldaş olur. Oruc zamanı orqanizmdə həzm olmayan vaxtı beyin rahatlıqla lazım olan qaydada qanla qidalanır və tədricən ağrılar kəsir.

**Şiş hüceyrələrinin məhvi.** Normal orqanizmdə daim hüceyrələr bölünür, yenilənir, qocalıb sıradan çıxır, anormal halda isə köhnə hüceyrələr bölünüb məhv olmadıqda zamanla böyüyür və şişlər əmələ gəlir, 15-16 saat ac qalan orqanizmdə gənc hüceyrələr öz aralarında lazımsız şiş hüceyrələrinə çevrilmək istəyən hüceyrələri parçalayıb məhv edirlər. Beləliklə, əmələ gələcək şiş hüceyrələri yerindəcə məhv olurlar.

**Mədə-bağırsağın təmizlənməsi.** Mədədə turşuluq, səpkilər və s. səbəblərdən ağrılar olur. Oruc zamanı ilk bir-iki gün ərzində yüngül ağrılar olsa da sonra keçir və mədə ilk günlər qidalanma vaxtı çatanda şirə ifraz etsə də, sonra beyin ona siqnal çatdırır ki, yemək yoxdur. Artıq şirə olmur və mədə divarı tədricən ay ərzində təzələnir. Bərpa olmuş mədə divarında qastritlər, poliplər və s. olmur və sağlam mədə qişası da sağlam şirə ilə yenidən bərpa olmuş olur.

**Şlaqlardan təmizlənmə.** Bir quzunu bir dəfəyə yeyən Koroğlu, üstündən də bulaq suyu içib Misri qılıncı və Qır atıyla döyüşə gedərdi (bir növ qida və hərəkət). Bugünkü qidalarımız elə qarışıqdır ki, mədə-bağırsaq bilmir hansı tərkib üçün hansı ferment yollasın. Nəticədə bağırsaq divarı qarınqarta kimi çöküntü – şlaq yığını ilə dolur. Oruc zamanı boş qalan bağırsaq sanki silkinir. Özünü müdafiə kimi şlaqlardan azad olur. Dəridəki ləkələr, sızanaqlar həmin şlaqların fəsadıdır. 30 gün ərzində tədricən orqanizm bu zibil yığınından azad olur.

**Qaraciyərin təmizlənməsi.** Koroğlu ona görə Koroğlu idi ki, bir növ yemək yeyirdi. Yəqin ki, Koroğluda bugünkü mövcud daxili orqan xəstəlikləri də olmazmış. Qarışıq qidaların "ləzzəti" illərin dərmanla yoldaşlığına gətirib çıxarır. Kimsə düşünmür ki, hər ağzımıza aldığımız tikənin analizi qaraciyərdən keçir. Ayırıb seçir, ödə yollayır və s. Sinirsiz orqan olan qaraciyər son ana qədər dərdini hiss etdirə də bilmir. Ramazan əsl qaraciyərin bayramıdır. Çünki 15-16 saat yeni işi olmayan bu cəfakeş keşikçimiz yığılıb qalan xolesterini, zərərli maddələri bir ay ərzində asta-asta təmizləyir. İldə bir dəfə qaraciyərin təmizlənməsi orqanizmin yenilənməsi deməkdir.

**Ödün boşalması.** Qaraciyərin öd kisəsinə yolladığı zərərli maddələr tədricən 12 barmaq bağırsağa tökülür, oruc zamanı bu orqana da yeni yük gəlmədiyi zamanı az-az öz kisəsini boşaldaraq orqanizmə bir yüngüllük gətirir, zəhərdən azad olur. Bax, bu səbəbdən Ramazandan sonra dərinin rəngində bir açılma, xoş nuranilik əmələ gəlir.

**Təzyiq yaradan səbəb.** Əlbəttə, müasir tibb yalnız nəticəni müalicə edir. Heç səbəbi müalicə edən görmədim. Bütün xəstəliklərin mütləq bir səbəbi var. Arterial təzyiqi də yaradan səbəblər olmasına rəğmən təzyiq salan dərmanla endirirlər, vəssalam.

**Qatılaşan qan.** Xolesterinlə zəngiləşən qan qaraciyəri, dalağı narahat etdiyi kimi (kerosinə dönmüş kimi) damarlarla da çətin gedir. Davamlı orucda, yəni 5-7 gün yox, tam 30 gün ərzində orqanizmin təkrar emalında damarlar da, qanın tərkibi də saflaşır. İmmun hüceyrələr lazımsızları məhv etməklə qanı da duruldurlar. Nəticədə təzyiq sabitləşir. Oruc tutma il ərzində təkrarlanarsa bu, təzyiqə son deməkdir.

**Böyrəklərin təmizlənməsi.** Su orqanizm üçün əvəzsizdir. Hüceyrələrdə su çatışmazlığı dözülməz. Oruc zamanı əsas, su balansı qorunmalıdır. Maye azlığı da böyrəyə imkan verir ki, bu istirahət ayında özünü yeniləsin. Bəli, nəticə etibarı ilə böyrək də özünü bərpa edir. "Boşluqdan" lazımsız kristalları ehtiyat maye ilə parçalayır.

**Piylərin parçalanması.** Oruc zamanı tükənən enerjini orqanizm piy qatını parçalamaqla alır. Həmçinin piyin parçalanmasında su da ayrılır axı (dəvənin hürgücünü yada salaq). Həmçinin piyin parçalanmasından qlükoza da alınır (qlükogen və qlükoza çevrilmələri).

**Şəkər xəstələri üçün çarə.** İnanılmaz izahatla diabetlilər üçün çarə imiş oruc. Mədəaltı vəz düzgün işləmədikdə onun ifraz etdiyi insulin düzgün sorulmur və qanda şəkərin miqdarı çatmır. Oruc zamanı isə 6-8 saat ac qalan orqanizm əvvəl təlatüm yaradır, sonra ehtiyatdan karbohidratı – qlükozanı emal edir və yoluna düşür. Əgər oruc tutmazdan əvvəl və sonra xolesterin və şəkər analizi verilsə, orucdan sondakı möcüzənin şahidi olmaq olar.

**Sərbəst radikallar.** Sərbəst radikallar elə bir atom yığınıdır ki, onların başına fırlanan elektronları tamamlanmır. Ona görə də orqanizmdə əmələ gəldikdə sağlam hüceyrələrə hücum edərək onları parçalayır, mənimsəyir. Ramazanda özünü yeniləyən orqanizmdə maddələr mübadiləsi güclənir. Bu zaman immunitet artır və sərbəst radikalların əmələ gəlməsinin qarşısı alınır.

**Follikul stimulu.** Hər bir orqan haqqında o qədər geniş yazmaq olar ki... Məqalə formatını nəzərə alaraq son olaraq öz qənaətimi də qeyd edim. Mollalar övladı olmayan qadınlara hər ay 7 gün oruc tutun deyərmiş. Məntiqi açıqlaması isə hər bir yumurta hüceyrənin ömrünü nəzərə alsaq, deməli, bu da bir növ stimul imiş.

Dieta üçün tutulan aclıq Ramazan aclığından fərqlənir. Ramazanda 16 saat ac qalırsan və yuxarıdakı proseslər öz axarıyla ay ərzində davam edir. Xatırladım ki, bir neçə gün olan oruclarda bu proseslər getmir. Ramazanda ilk həftədə mədə-bağırsaqda təmizlənmə gedir, 15 gün sonra toxuma və mübadilə səviyyəsində təmizlənmələr gedir.

Görün dinimizin nə gözəl əhatəli, elmi, sağlıqlı, nümunəvi qaydaları var. Kaş ki hamımız bu qaydalara əməl edib cənnəti elə bu dünyada yaradaydıq.

Allah orucunuzu qəbul etsin! Ramazan bayramınız mübarək! Dünyamızda açıq səma olsun! Hamımızın sonu kimliyimizdən asılı olmayaraq bir olan yolumuzda mərhəmətli və vicdanlı İNSAN olmağı arzu edərdim! Amin!

*Esmira ƏLƏKBƏRLİ*
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ

## NƏ VAXTSA AĞI QARADAN SEÇMƏYİN VAXTI GƏLƏCƏK

## (Türk folklorunun estetikası və mənəvi əqidəsi)

Elizbar CAVELİDZE

*(əvvəli ötən sayda)*

Bu boyun sonunda oğuzların, demək olar ki, bütün bəyləri sadalanıb. Belə ki, Dədə Qorqud onları xatırlamağı şərəf hesab edir və elə burada onların xidmərlərinə işarə edir, çünki "Dədə Qorqud"da verilən bu sadalamanın və onların etdiyi qəhrəmanlıqların tarixi əhəmiyyətindən başqa, əxlaqi-estetik dəyəri vardır. Bu nüsxənin tam göstərilməsini məqsədyönlü hesab edirəm: "Qara Dərə ağzında Qadir verən, qara buğa dərisindən beşiginin yapuğı olan, acığı tutanda qara daşı kül eyləyən, bığın ənsəsində yedi yerdə dügən, ərənlər əvrəni Qazan bəgin qardaşı Qaragünə çapar yetdi: Çal qılıcın, qardaş Qazan, yetdim!" - dedi.

Dəmir qapu Dərvənddəki dəmür qapuyı dəpüb alan, altmış tutam ala göndərinin ucında ər bögürdən Qıyan Selcik oğlı Dəli Dondar çapar yetdi: "Çal qılıcın, ağam Qazan, yetdim!" - dedi.

Bunun ardınca, xanım, görəlim, kimlər yetdi: Həmidlən Mərdin qalasın dəpüb yıqan, dəmür yaylı Qıpcaq Məlikə qan qusduran, gəlübən Qazanın qızın ərliklə alan, Oğuzun aq saqallu qocaları görəndə ol yigidi təhsin ləyən, al mahmuzıu şalvarlı, atı bəhri xotazlı Qaragünə oğlu Qara Budaq çapar yetdi: "Çal qılıcın, ağam Qazan, yetdim!" - dedi.

Bunun ardınca, görəlim, xanım, kimlər yetdi: Dəstursuzca Bayındır xanın yağısın basan, altmış bin kafirə qan qusduran, ağ-boz atının yelisi üzərində qar durduran Qəflət qoca oğlu Şir Şəmsəddin çapar yetdi: "Çal qılıcın, ağam Qazan, yetdim!" - dedi.

Bunun ardınca görəlim, xanım, kimlər yetdi: Parasarın Bayburd hasarından parlayub uçan, apalaca gərdəginə qarşu gələn, yedi qızın umudi, Qalın Oğuz imrəncəsi, Qazan bəgün inağı, Boz ayğırlu Beyrək çapar yetdi: "Çal qılıcın, ağam Qazan, yetdim!" -dedi.

Bunun ardınca, xanım, görəlim, kimlər yetdi: Çaya baqsa çalımlu, çal qaraquş ərdəmlü, qurqurma quşaqlu, qulağı altun kübəli, Qalın Oğuz bəglərini bir-bir atından yıqıcı Qazlıq qoca oğlı bəg Yegnək çapar yetdi: "Çal qılıcın, ağam Qazan, yetdim" - dedi.

Bunun ardınca görəlim, xanım, kimlər yetdi: Altmış ögəc dərisindən kürk eyləsə, topuqlarını örtməyən, altı ögəc dərisindən külah etsə, qulaqlarını örtməyən, qolı-budı xaranca, uzun baldırları incə, Qazan bəgün dayısı At ağızlu Aruz qoca çapar yetdi: "Çal qılıcın, bəgüm Qazan, yetdim!" - dedi.

Varıban Peyğəmbəri yüzini görən, gəlübəni Oğuzda səhabəsi olan, acığı tutanda bıqlarından qan çıqan, Bığı qanlu Bügdüz Əmən çapar yetdi: "Çal qılıcın, ağam Qazan, yetdim!" - dedi.

Kafirləri it ardına bıraqıb xorlayan, eldən çıqub Ayğır gözlər suyından at yüzdürən, əlli yedi qalamın kilidin alan, Ağ Məlik Çeşmə qızına nikah edən Sofi Sandal Məlikə qan qusduran, qırq cübbə bürinüb otuz yedi qala bəginin məhbub qızlarını çalub bir-bir boynın qucan, yüzində-dodağında öpən İlək qoca oğlı Alp Ərən çapar yetdi: "Çal qılıcın, ağam Qazan, yetdim!" - dedi *(Bax: Gilqaməş, Babil mətnindən M.Sereteli tərəfindən tərcümə, Konstantinopol, 1924).*

Dədə Qorqud bu bəylərin döyüşə atılmasını bir növ dinamik forma ilə sadalayır və sadalayan zaman əlaqələndirici ağıdan istifadə edir: "Bunun ardınca, xanım, görəlim, kimlər yetdi". Bu da bu sxematik sadalama xarakterini yox edir və bu epizodun süjet inkişafına bir növ dinamizm verir. O, olduqca çox diqqətə layiqdir ki, oğuzların sadalanması və xatakterizə edilməsi dəqiq elə həmin formada başqa boyda da təkrar olunub *(Bax: "Qazan xanın oğlu Uruz bəyin dustaq olduğu boy").* Bu sadalamada yalnız iki və yaxud üç əhəmiyyətsiz ad əlavə olunur: Dəli Dundar, "bin Bəğdiz başları Əmən", "doqquz qoca başları Aruz"...

Yuxarıda dəfələrlə qeyd etdim ki, eposu identik, bənzər epizodların təkrarlanması xarakretizə edir. Buna nümunə olaraq ən qədim epos olan Gilqameşi göstərə bilərik *(D.D.K., səh. 58-59; D.D.K., səh. 34; O.D.D.K.K., səh. 66.).*

İllah da ki, bu xalq eposunu xarakterizə edir və Dədə Qorqudun süjetinin inkişaf qaydasına tamamilə uyğun gəlir. Lakin mən hər halda düşünürəm ki, qarşılıqlı bənzərlik bu cür səhnələrin, götürək, Oğuz bəylərinin bu tipoloji sxemin təkrarlanması, hər şeydən öncə elə bu epizodun tarixi dəyərlərindən və əhəmiyyətindən xəbər verir. İkincisi də, bu təkrarın məqsədi oxucuda və dinləyicidə emosiyalı effekt əmələ gətirməkdir. Üçüncü də, burada artıq qeyd etdim ki, təkrarlıq eynilik estetikasının çox qəbul olunmuş ünsürüdür. Və nəhayət, başlıcası, burada konkret halda ümumi növ oğuzların güclü bəyi əhatə olunmayıb, bu da tamamilə "Dədə Qorqud"un bədii canlandırma metoduna tamamilə uyğun gəlir, eləcə də ayrı-ayrı qəhrəmanların fərdi xarakterizə edilməsi varımızdır ki, bu da təəssürat oyadıcı və izinə düşülmüş cizgilərlə və elə götürək libasın xüsusiyyətliliyi ilə, xatırlanan igidlərin bir-birindən fərqlənən xarakterini bizə təsvir edir. Bu, o dövrün fəaliyyətdə olan ümumi qanunun pozulmasıdır ki, bu da klassik ədəbiyyat üçün tamamilə yolverilməzdir. Lakin müəyyən olunduğu kimi, folklorda olar. İstər elə, istər belə, bu epizod bədii görüş dairəsi ilə tələsikdir və onun təkrar edilməsi də Orta əsrlərin, eləcə də bugünkü oxucuda və dinləyicidə emosiyalı qüvvə ehtiyatını oyadır.

Elə ilk sözün üzərinə gələk: "Arı sudan abdəst aldılar. Ağ alınların yerə qodılar. İki rükət

namaz qıldılar. Adı görklü Məhəmmədə salavat gətürdilər. Bitəkəllüf kafirə at saldılar". Ümumiyyətlə, bəylərin döyüşdən öncə müraciət etdiyi bu ayin sonralar oğuzlar tərəfindən islamın qəbul olunmasından sonra yayılmış və ümumiyyətlə, islamda bərqərar olunan ənənə-qaydadır. Bu dəfə qəribə dinamizm ilə verilən döyüş mənzərəsi daha çox duyğu oyadıcıdır. "Qılıc çaldılar. Gumbur-gumbur naqaralar dögildi. Burması altun tuc borılar çalındı. Ol gün cigərində olan ər yigitlər bəlürdi. Ol gün müxənnətlər sapa yer gözətdi. Ol gün bir qiyamət savaş oldı, meydan dolu baş oldi. Başlar kəsildi top kibi. Şahbaz-şahbaz atlar yügürdi, nalı düşdi. Alaala göndərlər süsildi. Qara polat uz qılıclar çalındı, yalmanı düşdi. Üç yeləkli qayın oqlar atıldı, dəmrəni düşdi. Qiyamətin bir güni ol gün oldı. Bəg nökərindən, nökər bəgindən ayrıldı" *(D.D.K., səh. 65; D.D.K., səh. 34; O.D.D.K.K., səh. 72.).*

Doğrudan da, mübarizə meydanı aydınlığı və çeviklivi ilə verilmişdir ki, dinləyicidə nübarizədə həmiştirakı duyğusunu oyatmaya bilməz. Bütün hallarda gözünü yaxşı açan və yaxşı diqqət kəsilən və həqiqəti dərk etmək qabiliyyəti olan kəs bu gün də oğuzların fədəkarlıq mübarizəsinin hay-küyünü eşidir. Ozanın məqsədi də təkcə tarixi faktı qeyd etmək deyil, eləcə də dinləyicinin estetik hissinin düzənliyinə çevirmək və onda yurd üçün mübarizə aparanların həmduyğusunu oyatmaqdır.

Bunun o da sübutudur ki, döyüş anının təsviri az-çox bütün boylarda dəqiqliyi ilə təkrar olunur ki, burada da kafirlərə qarşı nübarizə verilmişdir. Qısası, işimiz bədii-estetik prinsiplərlə çəkilmiş ümumi tipik mənzərə ilədir.

Elə burada oğuzların mübarizəsinin tarixinə dair mühüm məlumat verilmişdir: "Daş Oğuz bəgləriylə Dəli Dondar sağdan dəpdi. Cılasun yigitlərlə Qaragünə oğlı Dəli Budaq soldan dəpdi. İç Oğuz bəgləriylə Qazan dopa dəpdi, Şökli Məlikə həvala oldı, Şökli Məliki bögür dübəni atdan yerə saldı, ğafillücə qara başın alub kəsdi, qaxışdın alca qanın yer yüzinə dökdi. Sağ tərəfdə Qara Tükən Məlikə Qıyan Selcük oğlı Dəli Dondar qarşu gəldi..." Oğuzların və qədim türkdilli xalqların mübarizə taktikası tamamilə göz qabağındadır ki, buna da uyğun olaraq mübarizə üç: sağ, orta və sol tərəfdən hücum olmaqla həyata keçirilir. Məhz elə bu vasitə ilə on iki min kafir məğlub oldu və həyatla vidalaşdı, oğuzlar isə din uğrunda mübarizədə beş min nəfər itirdilər.

Və bir fakt da – Qazan xan qaçanları təqib etmədi, əfv diləyən kəsə həyat bağışladı...

Təbiidir ki, bu döyüş də oğuzların qələbəsi ilə sona yetdi və Qazan xan öz ailəsini xilas edi.

Rəvayət yenə də ənənəvi mənzərə ilə başa çatır: "Dədəm Qorqud gəlübən boy boyladı, soy soyladı, Bu oğuznaməyi düzdi-qoşdi". Bundan sonra Dədə Qorqudun tövsiyəsi və duası gəlir ki, bunu da yuxarıda artıq müzakirə etdik.

***

İndi növbəti "Qam Börənin oğlu Bamsı Beyrək boyu"nu gözdən keçirək. Bu böyun süjeti "Dədə Qorqud"a daxil olan boylardan, demək mümkündür ki, uzundur, lakin düzxətli deyildir və çoxtərəfli şaxələnmişdir. İndi həddindən artıq qısa, bu süjetin məhvərinin inkişafının əsas mərhələləri: Bayındır xanın ziyafətinə Oğuz bəyləri təşrif buyururlar. Onlar arasında Bay Börə öz müsibətinə görə ahvay elədi. Onun taxt-tacını verməyə, Bayındır xana qulluq edə biləcək oğlu yoxdur. "Ol zamanda bəglərin alqışı alqış, qarğışı qarğış idi". Həmin vaxt onlar dua etdilər, Tanrı onların yalvarışlarına mərhəmət etdi. Onda Baybican bəy də xahiş etdi ki, onun üçün də dua etsinlər, Tanrı ona qız versin və vurğuladı: "Bəglər, Allah-taala mana bir qız verəcək olursa, siz tanıq olun, mənim qızım Baybörə bəg oğluna beşikkərtmə yavuqlı olsun!", - dedi.

Zaman keçdi. Allah-taala Baybörə bəyə bir oğul verdi. Bəzirganları yanına çağırdı və oğlu üçün hədiyyələr almağa göndərdi. Bəzirganlar gecə-gündüz yol gedərək İstanbula çatdılar. "Dan-dansux ilə yaxşı ərmağanlar aldılar. Baybörənin oğlıyçun bir dəniz qulunı boz ayğır aldılar. Bir ağ tozlu qatı yay aldılar. Bir dəxi altı pərli gürz aldılar. Yol yarağın gördilər".

Lakin Oğuz qaydasına və ənənəsinə görə, bir baş kəsməsə, qan tökməsə idi ona ad qoyulmayacaqdı. Baybörənin oğlu ova çıxdı. Onun atası Əmiraxurbaşı ziyafət verdi. Bu zaman isə bəzirganlar 16 ildən sonra geri qayıtdılar. Lakin onların üzərinə Dərbənd dərəsində Evnik qalasının kafirləri qəfildən hücum etdilər və onları soydular. Bəzirganlar qaçaraq oğuzlara sığındılar və yardım üçün igidə müraciət etdilər və öz sərgüzəştlərini ona danışdılar. İgid düşünmədən quldurların üzərinə hücuma keçdi, qılınc çalanın, başını yuxarı qaldıranın isə həmin an başını vurdu. Sevinmiş bəzirganlar ona öz mallarını təklif edirlər. İndi bəyəndiyin maldan götür dedilər. İgid onun üçün alınan malları bəyəndi. Bəzirganlar bu malları hədiyyə etməkdən imtina edirlər və səbəbini izah edirlər – "Bu şeyləri bizim bəyimiz Baybörə bəyin oğlu üçün aparırıq", - dedilər. İgid özünü bildirmədi və atı qamçılayıb yoluna düzəldi.

Bəzirganlar bəyin yanına gələndə bu oğlanı burada gördülər və hər şeydən öncə onun əlindən öpdülər. Qəzəblənən Baybörə bəy onları təhqir edir: "Mərə, qavat oğlı qavatlar! Ata dururkən oğul əlinmi öpərlər?" Lakin bəzirganlar bu ənənənin pozulması səbəbini və onun oğlunun etdiyi igidliyi barədə ona izah edirlər.

Xan düşündü ki, oğluna ad qoyulmasının məqamı yetişib. Oğuzların pəhləvan bəylərini dəvət etdi və oğuz oğlunun haqq-hesabını onlara söylədi və onlar da oğlanı tərifləditlər. Dədə Qorqud gəldi və ad qoydu: "...Sən oğluni "Bamsam" deyü oxşarsan, Bunun adı Boz ayğırlıq Bamsı Beyrək olsun. Adını bən verdim, yaşını Allah versün, - dedi *(D.D.K., səh. 67; D.D.K., səh; 36-37; O.D.D.K.K., səh. 74.).*

Oğuz bəyləri də ova çıxdılar və Beyrək öz ayğırına mindi. Qəflətən oğuzun üzərinə bir sürü maral gəldi. Bamsı Beyrək birini qova-qova bir yerə gəldi, burada da qırmızı çadır qurulmuşdu. Bu çadır onun beşikkərtməsi olan Banıçiçəyə məxsus idi... Bir-birlərini təqdim edəndən sonra qız onunla cıdırda, ox atmaqda və güləşmək yarışmasını tələb edir.

Onlar bir-biri ilə yarışırlar. Nəhayət, oğlan təpər və cəfadan sonra qalib gəlir. Sonda qız ona kimliyini açıqlayır. Oğlan beş dəfə öpür, bir dəfə diçləyir, sonra uzaqlaşır və atasına yaxınlaşıb onu halı edir ki, onun evlənmək vaxtıdır. Ata ondan soruşur ki, kimə nişanlanmaq istəyirsən. Buna oğlu cavab verir: "Baba, mana bir qız alı ver kim, mən yerimdən durmadın ol durgəc gərək! Mən qarağuc atıma binmədin ol binmax gərək! Mən qırıma varmadın ol mana baş gətürmək gərək! Bunu kibi qız alı ver, baba, mana" - dedi. Atası ona cavab verir: "Oğul, sən qız diləməzsən, kəndünə bir hampa istərmişsən. Oğul, məgər sən istədigin qız Baybican bəg qızı Banıçiçək ola?!" - dedi. *(D.D.K., səh. 70-71; D.D.K., səh; 39-40; O.D.D.K.K., səh. 79.)* Ağsaqqal əziz ata, bəli, mənim istədiyim məhz elə odur, - deyə oğlu cavab verir.

*(davamı gələn sayda)*

*Gürcü dilindən tərcümə edən:*
**Mirzə MƏMMƏDOĞLU**

# NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR

## SOSİUM

### 13. QIRMIZI FƏNƏRLƏRİN TUTQUN İŞIĞI VƏ YA YALANÇI CƏNNƏT



*(əvvəli ötən sayda)*

Niderlandın dünyanın "seks cənnət"lərindən biri olduğundan az-çox məlumatınız olmalıdır. Əcnəbilərin ölkəni bu imiclə tanıması heç kimə sirr deyil. Bu mövzuya girişmişkən, onun tarixinə, dünyada bu gün mövcud durumuna dair bir-iki kəlmə ilə münasibət bildirməmiz çox güman ki, pis qarşılanmayacaq.

Fahişəliyin tarixi qədimdir. Onu ən qədim peşə adlandırırlar. Bu barədə elmi ədəbiyyatda külli miqdarda məlumatlara, faktlara rast gəlmək olar. Hər dövrün, hər xalqın bu hadisəyə öz baxış bucağından baxdığını, ona münasibətin birmənalı olmadığını da mübahisəsiz söyləmək olar. Zamanın dəyişməsi, yeni dini-əxlaqi dəyərlərin meydana çıxması cəmiyyətlərin fahişəliyə münasibətində də müəyyən korrektələr etmiş, dəyişikliklər yaratmışdır. Fərqli ölkələrdə fərqli münasibətlər formalaşmışdır. Bəzi cəmiyyətlərin fahişəlik hesab etdiyi hallar, digər cəmiyyətlərdə üstün əxlaqi dəyər hesab edilmişdir. Dünya böyük, xalqlar çox, adət-ənənələrdən doğan fikirlərsə müxtəlif.

Fahişəlik binayi-qədimdən mövcuddur. Qədim peşə adlandırılan fahişəlik bütün tarixi dönəmlərdə bu və ya digər şəkildə öz varlığını saxlaya bilmiş, bu gün də yaşamaqdadır. Əksər cəmiyyətlərdə fahişəliklə məşğul olanlara yuxarıdan aşağı baxılmış, bu yolun yolçuları yelbeyinlikdə suçlanmış, təqiblərə məruz qalmış, ölümlə üz-üzə, burun-buruna yaşamışlar. İndi də çox şeyin dəyişmədiyini, onlara qarşı eyni münasibətin hələ də sürdüyünü söyləyə bilərik. Sadəcə onları aşağılayan bəzi yöntəmlərin dəyişdiyini, müasirləşdiyini də söyləmək olar.

Fahişəliyin tarixindən bir-iki örnək gətirməmi də anlayışla qarşılayacağınıza ümid edirəm. Yazılı qaynaqlar müxtəlif coğrafiyalarda hələ əski dönəmlərdən bu peşənin kütləviliyi barədə məlumatları günümüzə qədər gətirib çıxarıb. Mesopotamiyada, Yaxın Şərqdə, Qədim Hindistanda, Qədim Yunanıstanda və Qədim Romada fahişəliyin cəmiyyətin müxtəlif təbəqələrini əhatə etdiyinə dair çoxsaylı məlumatlar qalmaqdadır. Əski sivilizasiya ocaqlarında fahişəliyə münasibətin fərqli olmasını da qaynaqlardan öyrənirik. İkiçayarasında fahişələrin ilahiləşdirilməsinə dair bilgilər var. Hindistanda fahişələr cəmiyyətin ən iyrənc təbəqəsi hesab olunurdu. Gil lövhələr üzərində fahişələrlə bağlı məlumatlara da rast gəlinir. Qədim yunan və Roma müəllifləri də bu barədə danışıblar. Qədim Yunanıstanda fahişələrin mənşəyinə görə bir neçə yerə bölündükləri, tutduğu statusa görə fərqləndikləri də bəllidir. Xristianlığın gəlişinə qədər Qədim Romada fahişəliyin çiçəklənməsinə dair məlumatlar isə daha çoxdur. Roma işğalları zamanı fahişələrdən döyüşçülərin həzz alması və əylənməsi üçün istifadə olunduğu da tarixi qaynaqlarda öz təsdiqini tapır. Fahişəliyin Roma imperiyasının dağılma səbəblərindən biri olmasını irəli sürən tarixçilər də var. Fahişəliyin Qədim Romada yuxarıdan aşağıya qədər bütün cəmiyyətə sirayət etdiyi də tarixi gerçəklikdir.

Müasir dünya ölkələrində də fahişəlik bu və ya digər yollarla – açıq, gizli, yarımgizli – varlığını sürdürməkdədir. Bəzi ölkələrdə fahişəliklə məşğul olma qanuniləşdirilsə də, bəzi ölkələrdə bu peşə ilə məşğul olanlara qarşı ciddi cəzalar, hətta ölüm cəzası nəzərdə tutulur. Bir qrup ölkələrdə isə fahişələrin fəaliyyəti leqallaşdırılmasa da, onların təqib olunması, cəzalandırılması nadir hallarda baş verir. Belə ölkələrdə fahişəliyə loyal yanaşıldığı, onların fəaliyyətlərinə göz yumulduğu diqqət çəkir. Bəzi ölkələrdə, o cümlədən də Niderlandda fahişələrin xüsusi rayonlarda fəaliyyət göstərməsinə icazə verilir. Fahişəxanaların yerləşdiyi bu cür rayonlar "Red Light", yəni "Qırmızı Fənər" adlanır. Qırmızı rəng tarixin müxtəlif dönəmlərində fahişəliyin rəmzi kimi görünüb. Fahişələrin qırmızı rəngli paltarlar geyinməsi, saçlarını qırmızı boyaması ənənəsi onları cəmiyyətin digər üzvlərindən fərqləndirən xüsusi işarə yerində çıxış edib. İngiltərədə yaxın keçmişə qədər normal ailələrdə qadınların qırmızı paltar geyməları qadağan idi. Qırmızı rəng burada da yüngül həyat tərzinin bəlgəsi hesab edilirdi. Düzdür, tarixən müxtəlif sivilizasiyalarda fahişəliyin rəmzi kimi təkcə qırmızı rəng deyil, digər rənglər də mühüm rol oynamışdır. Məsələn, İkiçayarasında fahişələrin saçlarını sarı rəngə boyaması ənənəsi var imiş. Görünür bu da onların ilahi əlamətlərindən biri sayılmış, bolluq-bərəkət simvolu hesab edilmələri ilə əlaqədar yetişmiş taxıl zəmisinə və ya günəşə bənzədilmələri üçün qəbul edilmiş bir norma idi.

Fahişələrin hüquqlarının qorunması, onların insan alverçilərinin qurbanına çevrilməməsi, həyatlarının təhlükələrdən uzaq olması üçün bəzi ölkələrdə müəyyən tədbirlərin görüldüyü, müvafiq qanunların qəbul edildiyindən xəbərimiz olsa da, fahişəliyin könülaçan bir iş olmadığını, digər peşələrə nisbətən daha çox risk daşıdığını da söyləmədən keçməyək. Müştəri tutmaq üçün özünü maşınların qabağına atan fahişələrin maşınların altında qalması bəzi ölkələrdə hər gün baş verən hadisələrdəndir. Məsələn, fahişələri bundan qorumaq üçün İtaliyada "Attenzione prostitute" – "Diqqət fahişə" yazılmış xüsusi yol nişanlarından istifadə olunur. Fahişələrinin sayı bir neçə yüz min olan İspaniyada isə gecə işinə çıxan fahişələrin fosforlu, işıqsaçan xüsusi geyimlər geyməsi mütləqdir. Bu, sürücülərin diqqətini cəlb etmək və bu yolla fahişələri qorumaq üçün düşünülmüş bir yöntəmdir. Bu geyimdən istifadə etməyən küçə fahişələri ilişəndə cərimə ödəməli olurlar.

Sözarası qeyd edim ki, 2 iyun Beynəlxalq Fahişələr Günü kimi qeyd olunur. 1975-ci ildən qeyd olunan bu gün dünyaya fahişələrin çətin vəziyyətini çatdırmaq üçün təsis edilmişdir.

Avropa ölkələrində, elə Türkiyədə də fahişələr digər sahədə çalışan işçilərlə eyniləşdirilir və onlar vergi ödəyiciləri hesab edilir.

Fahişəlik gəlirli biznesdir. Bu sahə bir sıra ölkələrdə mafiyaların nəzarətindədir. Bu qaranlıq qüvvələr insanları müxtəlif yollarla – hədə-qorxu, təhdid, şantaj, oğurluq, başgicəlləndirici vədlər vasitəsi ilə fahişəliyə məcbur edirlər. Başqa işə düzəldiləcəklərinə inandırılmış qadınların aldadılaraq zorla seks istismarına məruz qoyulması dünyanın bir çox bölgələrində qabarıq şəkildə özünü göstərir. Zorla və ya könüllü gələnlərin hesabına fahişələrin sırası hər gün yenilənir. Fahişəliyə məcbur edilmiş və ya bu işə könüllü başlamış bu insanların taleyi daim bir tükdən asılı olur. Müştərilərdən sağalmaz zöhrəvi xəstəliklərə tutulma, sahibləri tərəfindən fiziki işgəncə, ətrafdakıların sərt və aşağılayıcı baxışları və s. onların taleyinə yazılmış acı gerçəklərdir.

Düzdür, bu yola könüllü düşənlər, fahişəliyi özləri seçənlər də istənilən qədərdir.

Mən mövzunun uzanmasının fərqindəyəm, bunu unutmamışam. Elə buradan Amsterdamın Qırmızı Fənərlər küçəsinə gəzintiyə çıxmağı düşünürəm.

Niderlandda fahişələri seks işçiləri adlandırırlar. Xatırladım ki, Niderlandda rəsmi qeydiyyatdan keçmiş 2200 fahişə (bu məlumat 2018-ci ilə aiddir – A.M.) və ya seks işçisi fəaliyyət göstərir və bu fəaliyyətə görə onlar dövlətə vergi ödəyirlər. Qeyri-rəsmi fəaliyyət göstərən fahişələrin sayı isə bundan qat-qat çox olmalıdır. Bu barədə aşağıda daha ətraflı danışacam. Bir az hövsələnizi basın. Fahişəliklə məşğul olanlar 3 ayda bir dəfə tibbi yoxlamadan keçməlidirlər. Bu məcburidir. Bundan imtina edənlər fəaliyyət göstərə bilməzlər. Fəaliyyət göstərsələr də, bu qeyri-qanunidir. Buna görə cəzalana bilərlər. Hesaba dağlar baş əyər demirlərmi? Kim olursan ol, gərək hesabını dəqiq görəsən. Nədən ki, bura Niderlanddır, qanunları işlək, cəzaları sərt.

Niderlandda fahişəliyin rəsmiləşdirilməsi 2000-ci ildə baş vermişdir. Bundan sonra bu sektor özünü ölkədə sərbəst şəkildə ifadə etmək imkanı qazanmışdır. Bu sahədə çalışanlar həm öz gəlirləri barədə dövlətə hesabat verir, gələcəklərini bir növ sığorta edir, ayrı-ayrı şəxslərin deyil dövlətin himayəsinə keçir, həm də bu yolla dövlətin vergi ödəyicilərinin sayını artırırlar. Ağır iş şəraiti, yuxusuzluq, siqaret və spirtli içkilər, stress və qorxunun təsiri altında olan fahişələr əmək qabiliyyətlərini tez itirir, həyatlarının geridə qalan hissəsini, yəni postfahişəlik dövrünü rahat yaşamaq üçün dövlətin himayəsinə daha çox ehtiyac duyurlar. Qanuniləşmənin bu üstünlüklərini yaşlaşmış fahişələr öz həyatlarının pensiya çağında daha yaxşı hiss edirlər.

Biz tarixə baş vurmasaq işimiz aşmır. Mövzumuzun az-çox tamlığına nail olmaq üçün Niderlandın İkinci Dünya müharibəsindən sonrakı həyatına kiçik bir səfər etməmiz də gərəkir. Heç cür Qırmızı Fənərlər küçəsinə gedib çıxa bilmədiyimizin fərqindəyəm. Bir az səbr edin, məni darıxdırmayın. Bu tarixi ekskursumuzu da yerbəyer etdikmi, bizə mane olan bir səbəb qalmayacaq. Müharibə ölkənin iqtisadiyyatını iflic etmiş, şəhərləri, kəndləri xarabaya çevirmişdi. Sosial-humanitar çətinlikləri aradan qaldırmaq, dağılmış iqtisadiyyatı bərpa etmək üçün külli miqdarda vəsait, böyük işçi qüvvəsi tələb olunurdu. Bu azmış kimi müharibədən sonra ölkənin demoqrafik balansı da pozulmuş, kişilərin sayı azalmış, ölkədə kişi qıtlığı yaranmışdır. Kişi defisitinin yerini doldurmaq üçün kraliça kişiyə ehtiyac duyan qadınlara evlərinin pəncərəsindən qırmızı fənər asmaqla kişiləri evinə dəvət etmək icazəsi verdi. Və bundan sonra bu ənənə halını aldı. Qırmızı rəngin fahişəliyin rəmzlərindən olmasını isə artıq bilirik. Başqa bir versiyaya görə, bu ənənə bir neçə əsr bundan qabaq yaranmış, holland qadınları uzaq səfərdən dönən dənizçiləri cəlb etmək üçün axşamlar sahilə gedərək, qırmızı fənər yandırırmışlar, onlara müəyyən haqq müqabilində cinsi xidmət göstərirmişlər. Sonralar bu ənənənin qaldırılmasına, ləğv olunmasına baxmayaraq, 2000-ci ildən yenidən dirildildi, ona yeni nəfəs verildi. Bundan sonra qırmızı fənərlər özünün yeni seksturizm dövrünü yaşamağa başladı.

Bizim təsəvvürümüzdə yaratdığımız Avropa, Niderland da içərisində olmaqla homoseksuallardan, fahişələrdən, narkomanlardan ibarət bir yığamatdır. Və bu düşüncəmizdə bir qədər haqlı da görünə bilərik. O üzdən ki, bu imicin formalaşmasında, belə bir obrazın şəkillənməsində hökumətin yeritdiyi siyasətin də izləri görünməkdədir.

Niderland kapitalizm dünyasının bir parçasıdır. Müasir dünyada öz yerini tutmaq, söz sahibi olmaq üçün özünəməxsus, hər sahəni – siyasi, sosial, iqtisadi, dini – əhatə edən mükəmməl bir siyasətə sahibdir. Bu dövlətin öz varlığını sürdürmək üçün yüzlərlə üsuldan, yöntəmdən istifadə etməsi, öz vətəndaşlarının həyat səviyyəsini yüksəltməsi üçün müxtəlif yollara baş vurması gərəkdir. Eftanaziyanın, homoseksualizmin, narkomaniyanın, fahişəliyin rəsmiləşdirilməsi də bu yollardan sayıla bilər. Bunları rəsmiləşdirən Hollandiya bilərəkdən özü haqqında "seks cənnəti", "narkotika cənnəti" kimi bir fikrin formalaşmasına nail olmuş, dünyanın diqqətini öz üzərində cəmləşdirə bilmişdir.

Bu siyasətin arxasında ustalıqla gizlədilmiş əsil məqsəd nədən ibarətdir?

*(davamı gələn sayda)*

**Afiq MUXTAROĞLU**
Niderland

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

Yeni YOL

30 APREL 2022-Cİ İL № 008(155)

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com ❁ "ახალი ბილიკი" საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# 100-Ə YAXIN SİNİF RƏHBƏRİNƏ 800 LARİ DƏYƏRİNDƏ KOMPÜTER VERİLƏCƏK

Oktyabrın 1-nə qədər 6 yaşı tamam olan uşaqlara artıq məktəbə getmək şəraiti yaradılıb. Bu isə avtomatik olaraq 2022-2023-cü tədris ili üçün əlavə resursların səfərbər edilməsinə ehtiyac yaranacağı deməkdir.

Qanun müəlliflərinin sözlərinə görə, məktəb yaşını azaltmaqla şagirdlərin sayı təxminən 2 540 nəfər artıb. Nəticədə özəl və ictimai məktəblərdə 720,0 min lari dəyərində əlavə vauçerlərin maliyyələşdirilməsinə ehtiyac yaranacaq.

İctimai məktəblərdə isə əlavə təhsil resurslarının təmin edilməsinə ehtiyac yaranacaq: *şagirdlər üçün 2 540 "book" və birinci sinif rəhbərləri üçün 100 kompüter, 1 kompüterin qiyməti 800 lari, büdcə 2,112,0 min lari;*

*2 540 şagird üçün dərslik komplekti – 101,6 min lari;*

*Birinci siniflər üçün parta və stul – (2 540 ədəd) 711,0 min lari.*



Qeyd etmək lazımdır ki, qanun layihəsi ilə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi üçün 2022-ci ildə 3,644.6 min lari (qeyd olunan xərc ictimai məktəb şagirdlərinin təhsil alacağı şəraitdə nəzərdə tutulub) lazım olacaq. Bu, Gürcüstanın Təhsil və Elm Nazirliyinin öhdəliklərində nəzərdə tutulub.

*Mənbə: etaloni.ge*

# GÜRCÜSTANDA AZƏRBAYCAN VƏ TÜRKİYƏNİ ƏN MÜHÜM TƏRƏFDAŞ HESAB EDƏNLƏRİN SAYI ARTIB

International Republican Institute IRI advancing democracy worldwide

Beynəlxalq Respublika İnstitutunun (IRI) Gürcüstanda keçirdiyi ictimai rəy sorğusunun nəticələrinə əsasən, Gürcüstanda Azərbaycanı ən mühüm tərəfdaş hesab edənlərin sayı artıb.

Rəyi soruşulanların **20 %-i Azərbaycanı ölkənin ən mühüm siyasi tərəfdaşı hesab edib.**

Respondentlərin 54 %-i Avropa İttifaqını (Aİ), 53 %-i ABŞ-ı, 45 %-i Ukraynanı, **20 %-i isə Türkiyəni Gürcüstanın ən vacib siyasi tərəfdaşı kimi dəyərləndirib.**

Rəyi soruşulanların **24 %-nin fikrincə, Azərbaycan Gürcüstanın ən mühüm iqtisadi tərəfdaşıdır.** İlk üç ən vacib iqtisadi tərəfdaş kimi Aİ (45 %), ABŞ (42 %) və **Türkiyə (32 %)** göstərilib.

Sorğu bu ilin martın 4-dən 24-dək yaşı 18-dən yuxarı olan 1 486 respondent arasında üzbəüz müsahibə yolu ilə aparılıb.

Qeyd edək ki, IRI-nin əvvəlki analoji sorğusunun nəticələri ilə müqayisədə Gürcüstanda Azərbaycanı Gürcüstanın ən mühüm siyasi və iqtisadi tərəfdaşı hesab edənlərin faiz göstəricisi artıb. Belə ki, ötən ilin avqustunda keçirilən sorğunun nəticələrinə əsasən, respondentlərin 15 %-i Azərbaycanı Gürcüstanın ən önəmli siyasi, 19 %-i isə ən önəmli iqtisadi tərəfdaşı kimi qiymətləndirib.

# GÜRCÜSTANDA ƏHALİNİN SAYI AZALIB

Gürcüstanın Milli Statistika İdarəsinin hesabatında bildirilir ki, bu ilin yanvarın 1-nə olan məlumata əsasən, **Gürcüstan əhalisinin sayı 3 milyon 688,6 min nəfər təşkil edir.**

Sənədə görə, illik müqayisədə Gürcüstan əhalisinin sayında 1,1 % azalma qeydə alınıb.

Əhalinin 59,7 %-i şəhərlərdə, eyni zamanda üçdə bir hissəsi paytaxt Tbilisidə yaşayır.

**Kvemo Kartli bölgəsinin əhali sayı isə 434,5 min nəfərdir** ki, onların da 191,3 mini şəhər, 243,2 min nəfəri isə kəndlərdə məskunlaşıb.

Yaş tərkibinə gəlincə 0-14 yaşlı şəxslər ümumi əhalinin 20,8 %, 15-64 yaşlı şəxslər 63,7 %, 65 və ondan yuxarı yaşlı şəxslər isə 15,5 %-ni təşkil edir.

Gürcüstan əhalisinin 48 %-ni kişilər, 52 %-ni isə qadınlar təşkil edir. Kişilərin sayı 1 milyon 770 min nəfər, qadınların sayı isə 1 milyon 918,7 min nəfərə bərabərdir.

# GÜRCÜSTANDAN MÜHACİRƏT EDƏNLƏRİN SAYI ARTIB



Milli Statistika İdarəsinin illik hesabatına əsasən, 2021-ci ildə Gürcüstandan 1 429 nəfər Azərbaycan vətəndaşı mühacirət edib.

Sənədə əsasən, həmin şəxslərin 759-u kişi, 670-i isə qadın olub. İllik müqayisədə vətəndaşların sayı 1 518 nəfər azalıb.

Ötən il Gürcüstana mühacirət edən Azərbaycan vətəndaşlarının sayı isə 2 526 nəfər təşkil edib ki, bu da 2020-ci ilin eyni göstəricisindən 575 nəfər çoxdur.

Hesabat ilində Gürcüstanda immiqrantların sayı 74 008, emiqrantların sayı isə 99 974 nəfər olub. İllik müqayisədə **Gürcüstana mühacirət edənlərin sayı 15 988 nəfər azalıb, Gürcüstandan mühacirət edənlərin sayı isə 25 710 nəfər artıb.**

# "BORJOMİ" İSTEHSALINI DAYANDIRIB




"Borjomi" mineral sularının istehsalı aprelin 29-dan müvəqqəti olaraq dayandırılıb. Bu barədə "IDS Borjomi" şirkətindən bildirilib.

Məlumata əsasən, Ukraynada hərbi əməliyyatlar başlayandan şirkət çətin vəziyyətlə üzləşib. Bildirilib ki: *"Şirkətin məhsullarının əsas istehlak bazarlarında mürəkkəb vəziyyət bank hesablarına çıxışın məhdudlaşdırılması ilə ağırlaşıb, bu da şirkətin valyuta gəlirləri əldə etmək və kreditorlarla hesablaşma imkanlarını bağlayıb".*

Qeyd olunub ki, şirkət vəziyyəti əhəmiyyətli dərəcədə düzəltmək ümidi ilə bu günə qədər fəaliyyətini davam etdirir, lakin təəssüf ki, indiyə qədər bu mümkün olmayıb. Şirkət hər iki qablaşdırma zavodunda istehsal prosesini müvəqqəti dayandırmağa məcbur olub.

"IDS Borjomi" vəziyyətin yaxın gələcəkdə yaxşılaşacağı və fəaliyyətini bərpa etmək imkanının olacağına ümidvarlıq ifadə edib.

**Təsisçi:**
**"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"**

**Redaktor:** Azər MUSAOĞLU
**Yayım direktoru:** Hacı BƏKİROĞLU
**Qrafik dizayn:** Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeniyolqazeti@gmail.com

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.